# ŞƏHİD KƏNDİN İZİ İLƏ,

## *yaxud Səxavət İldırım oğlunun, "Yaddaşımın kəndi" kitabı haqqında qeydlər*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Nəhəng Sovet İmperiyasının dağılmasından sonra, baş verən hadisələr tarixin yaddaşında faciələri, qanları, müharibələri ilə əbədi qalacaq. Bu hadisələr Azərbaycan üçün daha dəhşətli oldu. Faşist ideologiyası ilə silahlanmış erməni quldurları Azərbaycan torpaqlarına hücum elədilər. onlar bu hücuma on illiklər boyu hazırlaşmışdılar. Erməni kilsəsinin xeyr-duası ilə tarixi qəsbkarlıq niyyətlərini gerçəkləşdirmək üçün, yaranmış fürsətdən bütün imkanları ilə istifadə etdilər.

Erməni faşistlərinin ata-babaları hələ ötən əsrin XX-ci illərinə qədər dəhşətli qətliamlar törətmişdilər. onlar müstəqil Azərbaycanı hələ beşiyindəcə boğmağa şalışmışdılar. Zəngəzurda Dərələyəzdə İrəvanda elə dəhşətli qətliamlar törətmişdilər ki, bu gün də həmin hadisələri yada salanda heyrətlənməyə bilmirsən. Həmin dövrün hadisələrini vaxtı ilə böyük yazıçımız Məmməd Səid Ordubadi "Qanlı sənələr" kitabında dəqiq faktlarla, bütün dəhşətləri ilə yazıb əbədiləşdir-mişdir.

Məmməd Səid Ordubadinin həmin kitabında Zəngəzurda Dərələyəzdə baş verən hadisələrlə yanaşı Qarabağdakı qanlı olaylarda bir şahidin dili ilə təsvir olunub. Bu günün hadisələri göstərir ki, vaxtı ilə İrəvan paytaxt kimi ermənilərə güzəşt olunsa da onlar işğalçılıq niyyətlərindən əl çəkməyiblər. Mənim üçün maraqlı burasıdır ki, ermənilər yeni şərait də təkcə Qarabağın işğalı ilə kifayətlənmədilər. Onlar Dağlıq Qarabağ ətrafı digər rayonlarıda işğal elədilər. Yüzlərlə kəndlərimiz dağıdıldı, talan edildi. Bir milyonadək insan yerindən-yurdundan didərgin olundu. Bir qərinə qədər vaxt torpaqlarımız işğal altında qaldı. Ən ağır işğal əzablarını yaşayan ərazilərimizdən biri də Cəbrayıl oldu.

Onu da deyim ki, Cəbrayıl rayonu onun ləyaqətli ziyalıları, qonaq pərvər adamları mənə çox doğmadır. Bu rayonun yazarları ilə çox yaxın əlaqələrim, dostluq münasibətlərim var. Sabir Şirvanının, Nəriman Mahmudun, tarix elmləri üzrə fəlsəfə doktoru, ekologiya üzrə tədqiqatçı Yusif Dirili - Mahmudovun kitablarını nəşr etmişəm. Bu yazarlarla mənim tanışlığımın əsasında, münasibətlərimizin dostluğa çevrilməsində görkəmli şair, publisist Əli Rza Xələflinin xüsusi rolu olub. İndi də Səxavət İldırım oğlunun "Yaddaşımın kəndi" kitabının nəşri və həmin kitaba rəy yazmaq mənə məmnunluq gətirir. Düşünürəm ki, Cəbrayıllı dostlarımın sırasına daha bir müəllif də əlavə olunub.

Səxavət İldırım oğlunun "Yaddaşımın kəndi" kitabı onun doğulub böyüdüyü kəndinin tarixi taleyinə həsr olunub. Bu kəndin adı Doşuludur. Onu da qeyd edim ki, Cəbrayıl rayonunda Süleymanlı, Qışlaq, Doşulu, Qaracalı, Blayand kəndlərinin camaatını, Güney camaatı deyə adlandırırlar. Müəllifin də təsvirlərindən göründüyü kimi, Kiçik Qafqazın, Qarabağ silsiləsinin Aran Qarabağa doğru uzanan dağlarının güneyində yerləşən bu kəndlər, həm coğrafi mövqeyinə, həm də iqliminə görə bir-birinə çox bənzəyir.

Müəllif öz kəndi haqqında çox məhəbbətlə, sevgi ilə danışır. Gözəl təbiətini günəşli iqlimini sevgi ilə tərənnüm edir.

Onuda deyim ki, vaxtı ilə erməni quldurlarını hücumlarına məruz qalmış bu kəndlərin acı yaşantılarını Məmməd Səid Ordubadi də dəqiq faktlarla göstərib. Zənnimcə Səxavət müəllimin bu kitabı Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsərindəki hadisələrin bizim dövrümüzdəki davamına həsr olunub. Müəllif böyük zəhmət bahasına yaddaşında yaşayan tarixi olayları doğma kəndin, firəvan zamanındakı həyatını müxtəlif mənbələr əsasında öyrənib. Yaddaşındakı hadisələrlə, yaddaşındakı tarixi faktlarla uyğunlaşdırıb. Və çox dəyərli bir mənbə hazırlayıb. Bu kitabı məlumat soraqşa mənnbəyi kimidə qəbul etmək olar. Əvvəlcə müəllifi düşündürən əsas məsələ odur ki, ağır taley yolu keçmiş və bu günə salamat gəlmiş adamların siyahısını tərtib etsin. Onların telefon nömrəlirini göstərməklə kənd camaatının yeni zaman üçün ünsiyyətini təmin etsin. Düşünürəm ki, birinci növbədə bu işin özü xüsusi bir xeyirxahlıqdır. Vaxtı ilə Mirzə Cəlil deyirdi ki, mənim Qarabağlı, Mərəndli, Xoylu... qardaşlarım fələyin qəddar üzündən bir-birindən ayrı düşdü. Əlbəttə, mən böyük Mirzə Cəlilin "Azərbaycan" məqaləsindəki düşüncələrini improvizə ilə yada salıram. Görünür Səxavət müəllim də insanların bir-biri ilə ünsiyyət tapmasını, yenidən birləşmək istəklərini gerçəkləşdirmək üçün müvafiq siyahıya ehtiyac duyub. Maraqlıdır ki, müəllif kəndin nəsillərinin əvəzlənməsinidə tarix tədqiqatı ilə verməyə çalışıb. O, birinci nəsil kimi Doşu kişinin adını çəkir. Mətndən belə məlum olur ki, Alı, Söyxan və Xanməmməd adlı oğlanları ilə Doşu kişi bu kəndin bünövrəsini qoyub. Bundan sonra, müəllif yəqin ki, çox böyük əziyyətlər bahasına sanki kameral siyahı yaradır. Dəyişən nəsillərin adlarını göstərir. Demək olar ki, yeddi-səkkiz nəsilə qədər dəyişən ata-babaların adları sıralanır. Hər hansı qədirbilən yeni nəsil övladı bu siyahı arasında atababalarının kimliyi haqqında məlumat ala bilər.

Maraqlıdır ki, müəllif otuz illik işğal zamanında əsir olunmuş ərazilərin xronikasınada geniş yer verir: "Kəndimiz Cəbrayıl rayonunun ən gözəl, bağlı-bağatı, dağlar qoynunda yerləşən kəndlərindən biridir.

1988-ci ildən başlayaraq ermənilər Qarabağda müstəqil olmaq, Ermənistana birləşmək üçün Qarabağa separatçı qüvvələr yerləşdirirdi. Onlar hər iki xalqın arasında düşmənçilik yaratmaq üçün müxtəlif yollara əl atırdılar.

Qarabağın ətrafındakı rayonlara yaxın olan erməni kəndlərinə soxulmuş saqqallılar ədavəti genişləndirmək əllərindən gələni edirdilər.

Məsələni rayonumuzun Əfəndilər kəndinə 200-300 metr qalmış bir yolu ayırır. Həm Əfəndilər, həm də Banazur (erməni kəndi) kəndinə gedir.

Yol ayrıcında ermənilər ala qapı düzəldib ora «Banazur» yazmışdılar. Bu da Əfəndilər kəndinin əhalisini hiddətləndirdi. Sonra rayon mərkəzindən Dağ Xələfli, Qərər, Tatar, Nüsüs, Sirik kəndlərinə gedən yolun yaxınlığında Hərəkül (erməni) kəndi var. Hərəkül camaatı yolun rayon mərkəzinə bitişik hissəsində ala qapı düzəldib ora da Hərəkül yazmışdılar. Bundan qəzəblənmiş rayon əhalisi, fəallar gecə ala qapını kəsib yox etmişdilər. Bu arada qoyun otaran bir nəfəri də ermənilər döymüşdülər". Demək artıq hadisələrin kəskinləşmə zamanı gəlib çatır. Hər kəs narahatdır. Bu hadisələrin axrı necə qurtaracaq, hələlik bu suala kimsə cavab verə bilmir. Ancaq müəllifin canlı təsvirləri ilə biz bu hadisələrin gedişatını maraqla izləyirik. Əlbəttə, nə qədər maraqla izləyiriksə, bir o qədər də, ağrı-acı ilə izləyirik.

Doğrudur, o dövrdə Qarabağ camaatı eləcə də cəbrayıllılar xüsusi mərdanəliklə, qorxmazlıqla dayanmışdılar. Bunu biz müəllifin şahidliyi ilə baş verən hadisələrin ardıcıllığından da görürük. Müəllifin təsvirlərindən göründüyü kimi, erməni quldurlarının yerləşdiyi Qarabağ kəndlərinə ayrı-ayrı ağsaqqallar sülh, barışıq təklifləri eləsələr də düşmən razılaşmır, elə buna görə də Cəbrayıl polisinin birbaşa müdaxiləsi ilə qonşu kəndlər erməni quldurlarından təmizlənir.

Burada maraqlı bir fakt da diqqətimi cəlb etdi: "Ermənilərin köçü el yolunda dayanmışdı. Mehdiyev Bahadır müəllim həmin maşınlardan Birinə yaxınlaşdı. Maşının kabinkasında oturmuş Yervant müəllimə dedi: Mən M.Qorki adına orta məktəbdə uzun müddət müəllim işlədim. Sənə «Əməkdar müəllim» adı verildi. Sən isə əvəzinə nə etdin? Fəal ermənilərin qabağına düşdün, bayraq qaldırdın. Bu da axırı. Yola salınırsan bu qoca vaxtında, ev-eşiyini, kəndini qoyub gedirsən. Yervant müəllim dedi: Bahadır müəllim, bu, bizim xeyirimizə olacaq. Biz qayıdacağıq". Bəli, müəllifin özüdə göstərdiyi kimi Rusiyanın imperiyapərəst dairələrinin istəyi ilə rus ordusu erməni quldurlarına kömək elədi. Həqiqətən bu, tarixi ədalətsizlik idi. Qarabağın işğalına artıq düşmən qəddarlıqla başlamışdır.

Ağır günlər haqqında müəllif çox acı təəssüratlarla danışır. Dağlıq Qarabağın ərazisindəki, Azərbaycan kəndləri xüsusi amansızlıqla yandırıldı, əhalisi yerindən-yurdundan didərgin oldu. O vaxt Cəbrayıl camaatı əl-ələ verib düşmənin qabağında igidliklə dayanmışdılar. O vaxt Doşulu, Qaracalı, Qışlaq, Süleymanlı, Balyand kəndlərinin cavanları da yuxarı da strateji ərazidə yerləşən Quşçular postuna köməyə gəlir, keşikdə ayıq-sayıq dayanırdılar. Ancaq neyləmək olar burada bir maraqlı məsələdə diqqətimi cəlb etdi. Müəllif göstərir ki, qanlı hadisələri o vaxt hələ məktəb partası arxasında olan uşaqlar da görürdülər. Daş başı postundakı qanlı hadisələri təsvir edərkən müəllif sonralar məşhur olan bir qəhrəmanın uşaq hisslərini də realliqla təsvir edir. Bu Ramil Səfərovdur. Müəllif onun haqqında yazır: "Burada bir haşiyə kənara çıxım. Ramil Səfərov həmin vaxt uşaq olsa da, xəstəxanaya gəlmiş və bu hadisənin canlı şahidi olmuşdur. R.Cəfərov da Vətəni sevmək, onu qorumaq ermənilərə nifrət hissi onu hərbi məktəbdə təhsil almağa və gələcəkdə hərbçi kimi ermənilərin bu vəhşiliyinin əvəzini çıxmaq arzusu yaratdı. Hərbi təhsilini davam etdirmək üçün Macarıstana göndərilmişdi. Kursda olarkən erməni kursant ona sataşmış, bayrağımızı təhqir etmişdir. R.Cəfərov bu təhqi-ri qəbul edə bilməmişdir. Düşməni gecə balta ilə doğramışdır.

**(Davamı 11-ci səhifədə)**

# ŞƏHİD KƏNDİN İZİ İLƏ,

## *yaxud Səxavət İldırım oğlunun, “Yaddaşımın kəndi” kitabı haqqında qeydlər*

*(Əvvəli 10-cu səhifədə)*

Bu hərəkətinə görə ona ömürlük cəza verildi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları çalışıb onu Azərbaycana gətirdi və əfv etdi. R.Səfərov hal-hazırda hərbi vəzifədə çalışır”. Bəli, gec də olsa indi tarixi ədalət bərpa olunur. Sonralar Ramil Səfərovun adını nəinki Azərbaycan, eləcə də bütün dünya tanıdı.

Yadımdadır, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin birbaşa müdaxiləsi və qətiyyəti sayəsində Ramil Səfərovun Vətənə gəlişi xalqın böyük coşqusu ilə qarşılandı. Onu da deyim ki, prezident İlham Əliyev hər bir əsgərin taleyi uğrunda sonralarla mübarizəsini davam etdirdi. Bunu biz, əsir və girovların aad edilməsindədə gördük.

Səxavət müəllimin “Yaddaşımın kəndi” kitabı, bir kəndin taleyindən bəhs etsə də, biz bu kitab da bir çox Cəbrayıl həqiqətləri haqqında da məlumat alırıq. Qarabağın işğal olunmuş digər ərazilərinin sakinləri kimi, Səxavət müəllimin kəndinin də adamları, Azərbaycanın hər yerinə səpələndilər.

Otuz illik işğal dövründə insanların bir çoxu yurd həsrətinə dözə bilmədi. İndi onların məzarları müxtəlif yerlərdədir.

Səxavət müəllimin kitabı tarixi etnoqrafiq oçet üslubunda yazılıb. Müəllif Doşulu kəndinin təkcə inanlarından bəhs etmir. Həm də doğma yerlərin bərəkətindən, bağ-bağatından, varlı təsərrüfatından da bəhs edir, maraqlı yer yurd adlarının mahiyyətinə də işıq salır. Müəllif kitabının xüsusiyyətçilik dövrü adlanan hissəsində oxucunun yaddaşına təsir edə biləcək qeydləri ilə diqqəti çəkir: “Doşulu kəndinin o dövrdə heyvanda-lıq, taxılçılıq və ən əsası baramaçılıqla məşğul olublar. Kəndin bağları son dövrə qədər geniş sahəni tuturdu. Biləvli adlanan bağ, Çinarın yanındakı kəhrizin suyu ilə suvarılırdı. Böyük tut ağacları sıx meşə kimi idi. Bağın ətrafında əkilmiş dağdağan ağaclarına üzüm tənəkləri dırmaşmışdı. Ağaclarda çoxlu üzüm olurdu. Zoğal, armud və qoz ağacları var idi. Kəhrizin üst tərəfində, bulağın altında tutluq deyilən bağ da var idi. Həmin bağda da armud, qoz və əncir ağacları əkilmişdir. Kəhrizin böyük gölü var idi. İndi də durur. Gölə yığılan su ilə dərənin güney və quzey hissəsində Naxır keçənə qədər tut bağı uzanardı. Şah tut deyilən böyük ağaclardan yarpaqlar barama qurduna yığılardı. Naxır keçəndən aşağı, Məriyolu kəhrizi var. Onun da suyu gölə yığılar və tut bağları suvarılardı. Kənddə çoxlu tut bağı olması ilə əlaqədar baramaçılıq inkişaf etmişdir”. Məlumat alırıq ki, bu kənddə insanların maraqlı məşğuliyyətlərindən biridə baramaçılıq olub. Hətta müəllif burada babasının məşğuliyyəti haqqındada məlumat verir. Onun baramaçılıq fəaliyyəti maraqlı detallarla yazıya alınır. Öyrənirik ki, erməni sahibkarlar hələ müəllifin təsvir elədiyi keçmiş zamanda da adamalrın halal qazancını mənimsəməyə cəhd ediblər. O vaxt Cəbrayılda baramaçılıq ticarəti ilə məşğul olanların Təbrizə ipəklik məhsul aparmaları haqqında məlumat da çox maraqlıdır. Müəllifin “Qəmər at” hekayəsi də maraqla oxunur. Qaçaqlarla savaş Qəmər atın aparılması ilə əhvalatlar indi də camaat arasında yaddan çıxmayan hekayət kimi xatırlanması yaddaşımıza tarixin bir parçası kimi gətirilir: “Bir at Qəmər adını incəliyinə, gözəlliyinə, yerişinə görə almışdı.

At Cavad əmimə məxsus olub. Əmim həmin at ilə Təbrizə, Ərdəbilə, Şuşaya alver etməyə gedər-miş. Əmimin səsi hardan gəlsə, səsləyən kimi gələrmiş. Bir gün qonşu kənddə toyda cavanlar atlanıb uzaq məsafədən qara zurnanın aşıqlar tərəfindən səslənməsi atları guşa gətirir.



Atlılar kəndə tərəf atlarla yarışa başlayırlar. Qəmər at birinci olaraq toy mağarına yaxınla-şır. Bu zaman əmim atın üzəngilərini yəhərdə çarpazlaşdırıb əlləri üstə atın üstündə durur. Bunu hiss edən at yerişini dəyişir və asta-asta toy mağarına yaxınlaşır.Qəmər atın adı Qarabağda deyil, həm də İran tərəfdə xüsusilə Təbriz və Ərdəbil şəhərində adla deyilərmiş”. Söz yox ki, bu əhvalatların hamısı bizdə keçmişimizlə əlaqənin qırılmazlığını təmin edir. Ümumiyyətlə, tarixi keçmişimizlə bağlı nə biliriksə, yazıya ala bilməyimiz xalqımıza ən üstün xidmətdir. Bu mənada Səxavət müəllimin bu beytlərinin əhəmiyyəti çox böyükdür.

Məlumdur ki, sonralar bolşeviklər Azərbaycanı çox qəddarlıqla işğal etdilər. Torpaqlar ümumiləşdirildi. Kəndlərdə yarıxoş-yarızor kolxozlar quruldu. Doğrudur, müəyyən müddətdə təsərrüfatlar dirçəlsə də, sonralar qayğısızlıq sayəsində bu qurumlar demək olar ki, iflasa uğradı. Adamlar kəndlərdən çıxıb şəhərlərə üz tutdu.

Müəllif maraqlı kənd əhvalatlarına da yer ayırır. Bu əhvalatlardan öyrənirik ki, Doşulu camaatı çox şən, işgüzar zəhmətdən qorxmayan olub. Ən başlıcası insanlar bir-birinə çox mehriban münasibət bəsləyiblər. Hər kəs imkanı daxilində qonşusunun qayğısına qalarmış.

Bu tipli əhvalatların yazıya alınması, insanlarda həyata nikbinlik duyğularını oyadır.

Səxavət müəllimin az yaşı yoxdur. Onun bir ömür boyu həyatı doğmaları arasında keçib. Ona görədə kəndlərinin keçmişi haqqında canlı təsürratları ilə danışa bilir. Məlumdur ki, uzun müddət Azərbaycan kəndləri elektrik işığını həsrətlə gözləyir.

Müəllif Doşulu kəndinə elektrik işığının çəkilməsini maraqlı bir hadisə kimi yazıya alır. Doşulu kəndinə işıq çəkilməsi hadisəsi, onun özünün yaddaşında da maraqlı olay kimi qalıb. Hətta, o vaxt (1961-ci ildə) bu münasibətlə bir şeirdə yazıb:

Mingəçevir, Mingəçevir,
Ürək səni nə çox sevir,
Çıl-çıraq etdin kəndimizi.
Çox sevindirdin sən bizi,

Kəndi nura boyadın,
Sevindirdin hər kəsi.
İşıqlandı küçələr.
Sevindi nənə, nəvələr.

İşıqla bağlı müəllifin maraqlı bir məqama münasibəti diqqətimi çəkdi. O qeyd edir ki, kəndimizin işığı 1993-cü ilin avqust ayına qədər sönmədi. Amma, erməni işğalçıları bu işığı kəssələr də Ali Baş Komandanımızın ordumuzun sayəsində erməni vandalları Qarabağdan bir dəfəlik qovuldu. Müəllif Doşulu kəndindən pərvazlanmış, tanınmış adamları, müharibə qəhrəmanlarını, həyatını Vətən uğrunda qurban vermiş igidləri hörmətlə xatırlayır.

Məndə xüsusi maraq doğuran, hissələrdən biri də kəndin bulaqlarının xatırlanmasıdır. Müəllif bulaqları bir-bir adları ilə yazıya alır: “Damcı bulaq” (Misir əminin çəpərinin altı), “Mamam bulağı” (Görablı kəndinə gedən yolda, dərənin sağ tərəfində), “Sulu bayıl bulağı” (Yumru qayadan 100 metr sol tərəfdə dərədə yolun altında), “Camal bulağı” (Süleymanlı üzdə kənd yerindən aşağı. Bu bulağın suyunu arxla Süleymanlı kəndinə aparırdılar, “Xəlib bağı” bulağı (Sarı torpaqdan aşağı dərədə çıxır), “Çinar” kəhrizi (Biləvli bağının yaxınlığında, kənd qəbiristanlığına yaxın), “Böyük kəhriz” (kəndin ortasında), “Məlikyolu kəhrizi” (Naxır keçəndən aşağı)”. Yəqin ki, hər bir oxucu bu adlardan müəyyən təsürratlar alar. Çünki, su çəkmək, bulaq yaratmaq uzaq keçmişdən bəri müqəddəs əməl hesab olunub. Düşünürəm ki, Doşulu kəndinin bacarıqlı adamları imkanlı şəxsləri həmin bulaqları yenə də bərpa edər, insanların istifadəsinə verərlər. Səxavət müəllimin kitabında sıralanan, maraqlı yer adlarını da oxucuların diqqətinə çatdırmağı özümə borc bildim: “ “Molla yeri”, “Sarı təpə”, “Qızlar ağacı”, “Ərikli zəmi”, “Noxudlu”, “Güllü zəmi”, “Sustalıq” ”. Hələ görün necə maraqlı bağ adları var: “Biləvli”, “Tumluq”, “Yalbağı” “Güney bağ”, “Şəybəy bağı”, “Baxçalar”, “Qızıl güllük” bağı”. Səxavət müəllim burada bir neçə dağın adını çəkir: “ “Şiş dağ”, “Yumru qaya”, “Qalacıq”, “Bəylərdir”. Mən ona görə bu qeydlərim də bir qədər təfərrüata ona görə vardım ki, ayrılıqda bu məqaləmi çap etdirəndə oxucu üçün qaranlıq heç nə qalmasın. Bu mənim geniş oxucu kütləsinə Doşulu kəndini yaxından tanıtmaq istəyimlə bağlıdır.

Zənnimcə, bulaqların və yer-yurd adlarının sadalanması Qarabağın gələcək tədqiqatçıları üçün də maraqlı bir mənbə ola bilər. Mən Səxavət müəllimin yer-yurd adlarına diqqətli münasibətini alqışlayıram. Ümumiyyətlə Qarabağ haqqında yazan hər kəs yer-yurd adlarına xüsusi önəm verməlidir. Çünki, erməni işğalçıları hər vəchlə bu adları dəyişdirməyə çalışıblar. Məqsədləri də bizim tarixi torpaqlarımızı mənimsəmək olub. Kitabda müəllifin digər yazıları da maraqla oxunur. Xüsusi ilə Doşulu kəndinin tarixi haqqında yazdıqlarını çox əhəmiyyətli hesab edirəm. Müəllif Doşulu kəndi ilə qonşuluqda olan digər kəndlərində haqqında yeri gəldikcə söhbət açır.

Səxavət müəllimin özü haqqında yazdıqları da maraqla oxunur.

Mən, Səxavət müəllimin özü haqqında yazılanları oxuyanda onun nüfuzlu bir maarif xadimi olduquna da inandım. Elə onun “Yaddaşımın kəndi” kitabı maarifçiliyə xidmətin nümunəsi kimi ərsəyə gəlir. Obrazlar, insanlar, əhvalatlar, hadisələr bir-birini əvəz edir. Bu kitabı oxumaqla biz Qarabağın daha bir kəndini yaxından tanımış oluruq. Zənnimcə bu kitab yüksək tirajla nəşr olunmalı, kitabxanalara, arxivlərə verilməli, kəndin hər bir sakininə çatdırılmalıdır.

Kitabı oxucuların maraqla qarşılayacağına inanıram.

**07.07.2025**